# Ultra & Trail Runners (UTR) Azerbaijan 🇦🇿

# Baku Ultra Endurance 6H•12H•24H

## YARIŞ REQLAMENTI


🇦🇿**BAKU ULTRA ENDURANCE 6H•12H•24H – YARIŞ REQLAMENTI........................ 3**
1. Ümumi Müddəalar.....................................................3
2. Yarışın Formatı və Start Vaxtları...................................3
3. Yarış Yeri və Dövrə.................................................3
4. Marşruta Dair Əsas Tələblər.........................................4
5. İştirak Şərtləri....................................................4
6. Yaş Kateqoriyaları və Təsnifat......................................5
7. Qeydiyyat...........................................................6
8. Start Proseduru.....................................................6
9. Nəticələrin Hesablanması............................................7
10. Nömrə, Çip və Identifikasiya.......................................7
11. Yardım və Qidalanma Zonası.........................................8
12. Dəstəkçi Qaydaları.................................................8
12a. Hərəkət Istiqamətinin Dəyişdirilməsi Qaydası.....................9
24 Saat Kateqoriyası...............................................9
12 Saat Kateqoriyası...............................................9
6 Saat Kateqoriyası...............................................10
Ümumi Müddəalar...................................................10
13. Qadağan Olunan Yardım.............................................10
14. Fasilələr və Dövrədən Çıxma.......................................11
15. Təhlükəsizlik və Tibbi Nəzarət....................................11
16. Yarışdan Çıxarılma və Diskvalifikasiya Halları....................12
17. Ayaqqabı, Texniki Vasitələr və Qayda Uyğunluğu.....................12

18. Hava Şəraiti....................................................13
19. Etiraz və Protest...............................................13
20. Mükafatlandırma.................................................13
21. Foto, Video və Media Hüquqları..................................14
22. Şəxsi Məlumatlar................................................14
23. Təşkilat Komitəsinin Hüquqları..................................14
24. Yekun Müddəa....................................................15

## 🇦🇿BAKU ULTRA ENDURANCE 6H•12H•24H – YARIŞ REQLAMENTI

### 1. Ümumi Müddəalar

Baku Ultra Endurance 6–12–24H zaman əsaslı ultraqaçış yarışıdır. Yarışın məqsədi iştirakçının seçdiyi zaman limiti ərzində maksimum məsafə qət etməsidir.

Yarış 20 iyun 2026-cı il tarixində, Bakı şəhəri, Pişəvəri parkında (Antena park) keçiriləcək. Yarışın əsas dövrəsi 1150 metr uzunluqdadır.

Yarışın təşkili, hakimlik, nəticələrin rəsmiləşdirilməsi, texniki prosedurlar, ayaqqabı və digər aid məsələlər qüvvədə olan World Athletics qaydalarına uyğun aparılır.

### 2. Yarışın Formatı və Start Vaxtları

Yarış aşağıdakı kateqoriyalar üzrə təşkil olunur:

- 24 saat — start 09:00, finiş növbəti gün 09:00
- 12 saat — start 09:00, finiş eyni gün 21:00
- 6 saat — start 08:00, finiş eyni gün 14:00

Hər iştirakçının nəticəsi yarış müddəti ərzində tamamladığı dövrələr və son siqnaldan sonra hakimlər tərəfindən qeydə alınan əlavə məsafə əsasında hesablanır.

### 3. Yarış Yeri və Dövrə

Yarış Bakı şəhəri, Pişəvəri parkında (Antena park) keçirilir. Dövrənin rəsmi uzunluğu 1150 metrdir.

Start, finiş, split nöqtələri, dəstək zonası, hakim postları, tibbi yardım sahəsi və digər texniki sahələr yarışdan əvvəl təşkilat komitəsinin təsdiq etdiyi rəsmi sxem üzrə müəyyən olunur.

### 4. Marşruta Dair Əsas Tələblər

Yarış marşrutu:

- nəqliyyat hərəkətindən təcrid olunmuş və ya tam nəzarət altında olacaq;
- gecə saatlarında kifayət qədər işıqlandırılacaq;
- təhlükəli hissələrdən təmizlənəcək və ya həmin hissələrdə əlavə marshal nəzarəti təmin olunacaq;
- tamaşaçı və iştirakçı axınını ayırmaq üçün zəruri yerlərdə baryer və lentlərlə qorunacaq;
- bütün dövrə boyunca aydın istiqamətləndirmə və nişanlama ilə təmin olunacaq.

### 5. İştirak Şərtləri

Yarışda iştirak etmək üçün idmançı:

- qeydiyyatdan tam keçməlidir;
- şəxsiyyət və əlaqə məlumatlarını düzgün təqdim etməlidir;
- reqlamenti qəbul etdiyini təsdiqləməlidir;
- start nömrəsi və elektron çipi qaydalara uyğun istifadə etməlidir;
- tələb olunduqda tibbi məlumat forması təqdim etməlidir;
- Razılıq ərizəsi imzalamalıdır.

## 6. Yaş Kateqoriyaları və Təsnifat

Yarışa yalnız 18 yaşını tamamlamış şəxslər buraxılır.

Bütün iştirakçıların yekun protokolunda:

- absolyut sıralamadakı yeri,
- yaş qrupundakı yeri

ayrıca qeyd olunacaq.

Mükafatlandırma aşağıdakı kateqoriyalar üzrə aparılacaq:

- Absolyut
- 40+
- 50+
- 60+

Bu bölgü həm kişilər, həm də qadınlar üçün tətbiq olunur.

Əlavə olaraq yarışda Klubların Absolyut Kuboku keçiriləcək. Klub hesablanması yalnız 24 saat kateqoriyası üzrə aparılır. Hər klubdan ən yüksək nəticə göstərmiş:

- 2 kişi
- 2 qadın

seçiləcək və onların qət etdikləri məsafələr toplanacaq. Ən yüksək ümumi məsafə göstərən klub absolyut klub qalibi elan olunur və kubok, həmçinin sponsorlar tərəfindən müəyyən edilən xatirə hədiyyələri ilə təltif olunur.

## 7. Qeydiyyat

Qeydiyyat UTR.az saytı üzərindən aparılır.

Qeydiyyat:

- yerlər bitənədək və ya son müraciət tarixinədək açıq qalır;
- son müraciət tarixi 17.06.2026 tarixidir;
- yekun təsdiq təşkilat komitəsi tərəfindən verilir.

Qeydiyyat zamanı aşağıdakılar tələb oluna bilər:

- şəxsiyyət məlumatları;
- fövqəladə əlaqə nömrəsi;
- tibbi məlumat forması;
- nəticə və təcrübə məlumatı;
- dəstək heyəti barədə məlumat.

Nəticə və təcrübə məlumatı məcburi deyil, lakin arzuolunandır.

Dəstək zonasına yalnız əvvəlcədən qeydiyyatdan keçmiş və akkreditasiyadan keçmiş şəxslər buraxılır. Akkreditasiyası olmayan şəxslərin dəstək zonasına daxil olması qadağandır.

## 8. Start Proseduru

Bütün iştirakçılar startdan əvvəl çağırış zonasına daxil olmalıdır.

Rəsmi proqramda aşağıdakılar elan olunacaq:

- start vaxtları;

- brifinq vaxtı;
- nömrə və çip paylanması;
- texniki məlumatlandırma;
- dəstək zonası qaydaları.

Təşkilat komitəsi zərurət yarandıqda start vaxtlarında dəyişiklik edə bilər. Bu dəyişiklik 1–2 saatdan çox olmamaq şərti ilə rəsmi proqram vasitəsilə elan olunur.

### 9. Nəticələrin Hesablanması

Nəticələr elektron zamanölçmə sistemi ilə hesablanacaq.

İştirakçının qət etdiyi məsafə:

- tam tamamlanmış dövrələrin sayı;
- yarışın bitmə siqnalından sonra son nöqtəyə qədər əlavə ölçülən məsafə

əsasında müəyyən ediləcək.

### 10. Nömrə, Çip və Identifikasiya

Hər iştirakçıya:

- rəsmi start nömrəsi;
- elektron çip

verilir.

Start nömrəsi yarış boyu görünən şəkildə daşınmalıdır. Nömrənin dəyişdirilməsi, ötürülməsi və gizlədilməsi qadağandır. Çipin itirilməsi,

dəyişdirilməsi və ya başqa iştirakçıya verilməsi nəticənin ləğvinə səbəb ola bilər.

## 11. Yardım və Qidalanma Zonası

Yarış ərazisində aşağıdakılar təşkil ediləcək:

- rəsmi su və qidalanma məntəqəsi;
- şəxsi qidalanma masaları və ya şəxsi dəstək zonası;
- oturma və qısa bərpa sahəsi;
- tibbi yardım nöqtəsi.

Əlavə olaraq:

- 12 saat iştirakçıları üçün təşkilatçı tərəfindən 2 dəfə isti qida təmin olunacaq;
- 24 saat iştirakçıları üçün təşkilatçı tərəfindən 5 dəfə isti qida təmin olunacaq.

## 12. Dəstəkçi Qaydaları

- 6 saat iştirakçısının yalnız 1 dəstəkçisi ola bilər.
- 12 saat iştirakçısının yalnız 1 dəstəkçisi ola bilər.
- 24 saat iştirakçısının yalnız 2 dəstəkçisi ola bilər.

Lakin eyni anda dəstək məntəqəsində hər iştirakçı üçün yalnız 1 dəstəkçinin olmasına icazə verilir.

Dəstək yalnız təşkilat komitəsinin müəyyən etdiyi rəsmi dəstək zonasında göstərilə bilər.

## 12a. Hərəkət Istiqamətinin Dəyişdirilməsi Qaydası

Yarış iştirakçılarının təhlükəsizliyinin təmin olunması və müxtəlif kateqoriyalar üzrə eyni dövrədə hərəkət edən idmançıların bir-birinə əks istiqamətdə qaçmasının qarşısını almaq məqsədilə yarış zamanı hərəkət istiqaməti aşağıdakı qaydada tənzimlənir:

### 24 Saat Kateqoriyası

24 saat yarışının startı saat əqrəbinin əksi istiqamətində veriləcək.

Hərəkət istiqaməti yarış zamanı 3 dəfə dəyişdirilir:

- startdan etibarən — saat əqrəbinin əksi istiqamətində;
- yarışın başlanmasından 6 saat sonra, yəni 20 iyun 2026-cı il saat 15:00-da — saat əqrəbi istiqamətinə dəyişdirilir;
- 20 iyun 2026-cı il saat 21:15-də — saat əqrəbinin əksi istiqamətinə dəyişdirilir;
- 21 iyun 2026-cı il saat 03:00-da — saat əqrəbi istiqamətinə dəyişdirilir;
- bundan sonra finişədək istiqamət dəyişdirilmir.

### 12 Saat Kateqoriyası

12 saat yarışının startı saat əqrəbinin əksi istiqamətində veriləcək.

- startdan etibarən iştirakçılar saat əqrəbinin əksi istiqamətində qaçacaqlar;

- yarışın başlanmasından 6 saat sonra, yəni 20 iyun 2026-cı il saat 15:00-da — saat əqrəbi istiqamətinə dəyişdirilir;
- bundan sonra finişədək istiqamət dəyişdirilmir.

6 Saat Kateqoriyası

6 saat yarışının hərəkət istiqaməti təşkilat komitəsinin yarış öncəsi təsdiq etdiyi texniki sxemə uyğun müəyyən edilir və rəsmi brifinq zamanı elan olunur.

Ümumi Müddəalar

İstiqamət dəyişikliyi zamanı bütün iştirakçılar hakimlərin, marshal-ların və təşkilat komitəsinin göstərişlərinə dərhal əməl etməlidirlər. İstiqamət dəyişikliyi anında təhlükəsizlik məqsədilə xüsusi keçid və yönləndirmə proseduru tətbiq oluna bilər.

Hakimlərin göstərişinə əməl etməyən, istiqamət dəyişikliyi qaydasını pozan və ya bilərəkdən yanlış istiqamətdə hərəkəti davam etdirən iştirakçı yarışdan uzaqlaşdırıla və ya diskvalifikasiya edilə bilər.

### 13. Qadağan Olunan Yardım

Aşağıdakılar qadağandır:

- rəsmi yardım zonalarından kənarda qida, maye, buz, süngər, avadanlıq və geyim dəyişikliyi yardımı almaq;
- masaj, tibbi yardım və ya texniki yardımın rəsmi zonalardan kənarda göstərilməsi;
- pace-maker, müşayiətçi, velosipedli və ya digər hərəkətli dəstək vasitələrindən istifadə;

- yarış iştirakçısının başqa şəxs tərəfindən müşayiət olunması.

İstisna olaraq, yalnız 12 saat və 24 saat yarışlarında, yarışın son 30 dəqiqəsində, hər iştirakçı üçün 1 dəstəkçinin motivasiyaedici müşayiətinə icazə verilir. Bu müşayiət yalnız təşkilat komitəsinin müəyyən etdiyi qayda və təhlükəsizlik şərtləri daxilində mümkündür.

### 14. Fasilələr və Dövrədən Çıxma

İştirakçı istənilən anda qısa fasilə verə bilər. Lakin:

- qısa fasilə zamanı dövrədən çıxdığı nöqtədən yenidən daxil olmalıdır;
- uzun fasilə verilərsə, bu barədə zamanölçmə və ya hakim zonasına məlumat verilməsi tövsiyə olunur;
- yarış müddəti dayandırılmır.

İştirakçı yarış marşrutunu yalnız təşkilat komitəsinə və hakimlərə əvvəlcədən məlumat verdikdən sonra tərk edə bilər. Bu məlumat verilmədən marşrutun tərk edilməsi avtomatik diskvalifikasiya ilə nəticələnir.

### 15. Təhlükəsizlik və Tibbi Nəzarət

Təşkilat komitəsi yarış boyu aşağıdakı tibbi dəstəyi təmin edəcək:

- həkim;
- tibb bacısı və ya feldşer;
- ilkin yardım heyəti;
- zərurət olduqda fizioterapiya və ya podoloji dəstək.

İştirakçı:

- öz sağlamlıq vəziyyətinə görə start məsuliyyətini daşıyır;
- təşkilat komitəsinin sorğusu halında tibbi məlumat verməlidir;
- yarışdan əvvəl və ya yarış zamanı tibbi komandanın qərarına tabe olmalıdır.

Tibbi komandanın iştirakçının yarışa davam etməsi və ya dayandırılması ilə bağlı qərarı yekun hesab olunur.

### 16. Yarışdan Çıxarılma və Diskvalifikasiya Halları

Aşağıdakı hallarda iştirakçı yarışdan uzaqlaşdırıla və ya diskvalifikasiya oluna bilər:

- qadağan olunmuş yardım almaq və ya vermək;
- marşrutu qısaltmaq;
- hakim göstərişlərinə əməl etməmək;
- təhlükəli davranış;
- digər iştirakçılara mane olmaq;
- etik davranış qaydalarını pozmaq;
- tibbi komandanın yarışın dayandırılması barədə qərarına əməl etməmək;
- marşrutu əvvəlcədən məlumat vermədən tərk etmək;
- nömrə və ya çiplə bağlı saxtalaşdırma hallarına yol vermək.

Pozuntu halında hakimlər tərəfindən xəbərdarlıq və ya birbaşa diskvalifikasiya tətbiq oluna bilər.

### 17. Ayaqqabı, Texniki Vasitələr və Qayda Uyğunluğu

İştirakçılar istifadə etdikləri ayaqqabı və digər icazə verilən texniki vasitələrə görə özləri məsuliyyət daşıyırlar. Yarışda istifadə edilən ayaqqabı

və digər texniki vasitələr qüvvədə olan World Athletics qaydalarına uyğun olmalıdır.

### 18. Hava Şəraiti

Yarış bütün hava şəraitlərində keçirilə bilər. İştirakçılar istilik, külək, yağış və gecə saatlarında temperatur fərqi üçün hazırlıqlı olmalıdırlar.

Ekstremal hava və təhlükəsizlik riski olduqda təşkilat komitəsi:

- start vaxtını dəyişə bilər;
- yarışı neytrallaşdıra bilər;
- yarışı dayandıra bilər;
- marşrutu dəyişə bilər.

### 19. Etiraz və Protest

Nəticə, hakim qərarı və ya texniki məsələ ilə bağlı etiraz:

- əvvəlcə şifahi olaraq baş hakimə;
- daha sonra yarım saat ərzində yazılı formada

təqdim edilir.

### 20. Mükafatlandırma

Aşağıdakı kateqoriyalar üzrə mükafatlandırma nəzərdə tutulur:

- 6 saat kişilər / qadınlar
- 12 saat kişilər / qadınlar
- 24 saat kişilər / qadınlar

Əlavə olaraq yaş qrupları üzrə mükafatlandırma bu reqlamentin 6-cı bölməsinə uyğun aparılır.

Milli nəticə əldə edən iştirakçılara, hər 3 yarışın həm kişi, həm də qadın kateqoriyalarında əlavə olaraq sertifikat təqdim ediləcəkdir. Həmin rekord və ya milli nəticələrin qeydiyyata alınması ilə bağlı rəsmi müraciətlərdə təşkilat komitəsi tərəfindən dəstək veriləcəkdir.

### 21. Foto, Video və Media Hüquqları

İştirakçı qeydiyyatdan keçməklə yarış zamanı çəkilən foto, video və digər media materiallarının təşkilat komitəsi tərəfindən promo, informasiya və ictimai təqdimat məqsədilə istifadə olunmasına razılıq verir.

### 22. Şəxsi Məlumatlar

Qeydiyyat zamanı təqdim olunan məlumatlar yarışın təşkili, təhlükəsizlik, nəticələrin emalı və iştirakçı ilə əlaqə məqsədləri üçün istifadə olunur.

### 23. Təşkilat Komitəsinin Hüquqları

Təşkilat komitəsi aşağıdakı hüquqları özündə saxlayır:

- reqlamentə dəyişiklik etmək;
- təhlükəsizlik məqsədilə marşrutu və proqramı yeniləmək;
- iştirak limitini müəyyən etmək;
- qeyri-düzgün və ya natamam qeydiyyatı ləğv etmək.

Bütün yeniliklər rəsmi informasiya kanalları vasitəsilə elan olunur.

### 24. Yekun Müddəa

Bu sənəd Baku Ultra Endurance 6-12-24H yarışının yekun reqlament layihəsidir. Yarışdan əvvəl təşkilat komitəsi tərəfindən rəsmi proqram, texniki sxem, split start nöqtələri, dəstək zonalarının planı, tibbi və təhlükəsizlik məlumatları, həmçinin mükafatlandırma və protokol qaydaları ayrıca elan ediləcək.